السنّة النبوية وعلومها
www.sunnah.global

# Ey Allaın elçisi, biz cihadı ən üstün əməl görürük, elə isə vuruşmayaqmı? O, dedi: “Xeyr, lakin (siz qadınlar üçün) ən üstün cihad qəbul olunmuş həccdir”

Möminlərin anası Aişədən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Ey Allaın elçisi, biz cihadı ən üstün əməl görürük, elə isə vuruşmayaqmı? O, dedi: “Xeyr, lakin (siz qadınlar üçün) ən üstün cihad qəbul olunmuş həccdir”.
[Səhih] [Əl-Buxari rəvayət etdi]

Səhabələr (Allah onlardan razı olsun) Allah yolunda cihad etməyi və düşmənlərlə vuruşmağı ən üstün əməllərdən hesab edirdilər. Aişə (Allah ondan razı olsun) Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdu ki, onlar (qadınlar) da cihad etsinlərmi? Və Allahın Elçisi (Allahın salavatı və salamı onun üzərinə olsun) onları, onlar üçün ən yaxşı olan cihada yönəltdi. Bu isə Quran və Sünnəyə uyğun, günah və riyadan uzaq olan, qəbul olunmuş həccdir.

https://sunnah.global/hadeeth/az/show/2759

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee